BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№3 *Humanitar elmlər seriyası* 2008

# METODİKA

## ŞAGİRDLƏRİN TƏLİM-İDRAK MÜSTƏQİLLİYİ MƏSƏLƏSİ ÜZRƏ AZƏRBAYCAN PEDAQOJİ FİKİR TARİXİNƏ DAİR

**M.A.İSMİXANOV**
***Bakı Dövlət Universiteti***

Böyüyən nəslin təlim-idrak müstəqilliyi məsələsi dünya pedaqoji fikrində olduğu kimi, Azərbaycan pedaqoji fikir tarixində də mühüm yer tutur. Azərbaycan xalq pedaqogikasında insanın ağlı, biliyi, zehni inkişafı və müstəqilliyi yüksək qiymətləndirilmiş, kamil şəxsiyyətin əsas keyfiyyətləri sırasında ön plana çəkilmişdir. Xalq əqli inkişafda müstəqil təhsili, biliklərə yiyələnməyi mühüm şərt hesab etmişdir. Bunun vasitələri kimi ağıllı adamlarla məsləhətləşmək ("Soruşan dağlar aşar, soruşmayan düzdə çaşar"), daim arayıb-axtarmaq ("Axtaran tapar"), müstəqil çalışmaq və səy göstərmək ("Yatmaqla bilik qazanmaq olmaz"), müstəqil müşahidələr aparmaq və nəticələr çıxarmaq ("Göz görmək üçün, ağıl bilmək üçündür"), təhsil almaq, biliklərə yiyələnmək ("Savadsız adam kor kimidir"), mütaliə etmək ("Kitab bilik mənbəyidir") və s. xalq tərəfindən yüksək qiymətləndirilir. Folklor nümunələrində çalışqanlıq, biliklərə yiyələnmək müsbət hal kimi təqdir edildiyi kimi, onlara əks sifətlər – savadsızlıq, nadanlıq, tənbəllik həmişə pislənmişdir. Ağıllı adamlar öz biliyi və fərasəti hesabına şər qüvvələrə qalib gəldiyi halda, nadanlar öz ağılsızlığı və biliksizliyi ucbatından həmişə zərər çəkirlər.

Azərbaycanın şifahi ədəbiyyatında olduğu kimi, yazılı mənbələrdə — filosof, yazıçı və pedaqoqların əsərlərində də insan ağlı, onun müstəqil fikrə malik olması şəxsiyyətin qiymətli keyfiyyətləri kimi səciyyələndirilir. Görkəmli Azərbaycan filosofu və pedaqoqu Ə.Bəhmənyar (XI əsr) ağlı, biliyi insanın ən böyük mal-dövləti hesab edir və deyirdi ki, insan öz həyatını mal-dövlət yığmağa yox, bilik qazanmağa həsr etməlidir. "Ət-təhsil" (idrak haqqında) əsərində o, idrakda hissiyyatın, fikir gücünün və onların vəhdətinin əhəmiyyətini qeyd edir, hər hansı obyekti xarici hisslərlə və insanın daxili fikir qüvvəsinin köməyi ilə daha yaxşı dərk etməyin mümkün olduğunu göstərirdi (1, s. 115). Bəhmənyar şagirdləri müstəqil düşünməyə və işləməyə alışdırmaqda təmrinlərə xüsusi əhəmiyyət verirdi. Çünki çalışmaların və praktik fəaliyyətin köməyi ilə müəyyən işə meyllilik və adətlər formalaşır.

İnsan ağlı və onun inkişafı problemi dünya poeziyasının korifeyi, görkəmli mütəfəkkir-şair Nizami Gəncəvi (XII əsr) yaradıcılığında da öz əksini tapmışdır. Nizami ağlı insanın bütün digər keyfiyyətlərinin əsasında qoyur, onu ən böyük qüvvə sayırdı: "İnsana arxadır onun kamalı, ağıldır hər kəsin dövləti-malı". Nizamiyə görə, ağıl insanın bütün fəaliyyətinə rəhbərlik və nəzarət edir, onu istiqamətləndirir. Böyük filosof-

şair ağlın inkişafında elmi biliklərə, təhsilə yiyələnməyin rolunu yüksək qiymətləndirmişdir: "Elmlə, hünərlə! — Başqa cür heç kəs, heç kəsə üstünlük eləyə bilməz". Nizamiyə görə, elm ağlı cilalayır, insanın yaradıcı imkanlarını genişləndirir, onu dünyanın sirləri ilə tanış edir. Hər bir sirrə ağıl, elm və biliklə yol tapmaq olar. Nizami oğlu Məhəmmədə nəsihətində elmlə məşğul olmağı, müəyyən elm sahəsində kamil olmağı məsləhət görürdü: "Bir elmi öyrənmək istədikdə sən, çalış ki, hər şeyi kamil biləsən" (2, s. 208). Nizami insana elmi biliklər verməklə yanaşı, onun zehni qüvvələrini inkişaf etdirməyi, ona müstəqil düşünmək bacarığı, həyatın sirlərini açmaq əzmi aşılamağı da lazım bilirdi. İnsan ağlı və onun inkişafına dair dahi Nizaminin fikirləri bu gün də öz dəyərini saxlamaqdadır.

Həyatda ağla, müstəqil düşüncəyə böyük mütəfəkkir, filosof və pedaqoq N.Tusi (XIII əsr) də yüksək qiymət vermişdir. O, ağlı, hikməti bütün fəzilətlərin əsası hesab edirdi, çünki bunsuz başqa fəzilətlərə çatmaq çətindir. Hikmətli adamlara zəka, zehni aydınlıq, dərketmə sürəti, öyrənmə asanlığı, ağıl gözəlliyi, yaxşı hafizə, hazırcavablıq xasdır (3, s. 84-85). Böyük alim ağıl və hikmətə yiyələnməkdə insanın daim öz üzərində işləməsini, mütaliə etməsini, müstəqilliyə adət etməsini, iradə gücü ilə çətinlikləri aradan qaldırmasını mühüm şərt sayırdı. "Əxlaqi-Nasiri" əsərində o yazır: "Yeni öyrənməyə başlayan şagird müstəqil düşünməyə adət etsə az bildiyini başa düşər, hikmətlə ünsiyyət bağlayar. Kamillik dərəcəsinə yaxınlaşdıqca... o daha diqqətlə mütaliəyə başlar, elmin çətinliklərinə qələbə çala-çala işlərinə vaqif olar, böyük məlumat toplayıb çox uzağa gedər" (3, s. 115).

N.Tusi təlimdə şagirdlərə fərdi yanaşmağa xüsusi əhəmiyyət verirdi. O tövsiyə edirdi ki, istedadlı uşaqlara şərait yaratmaq, çətinliyə rast gəldikdə onlara kömək etmək lazımdır. Böyük alim öyrənmək istəməyən şagirdlərin tərbiyəsi ilə məşğul olmağı, onları tənbeh etməyi, qabiliyyətlərinə uyğun sahə ilə məşğul olmağa vadar etməyi məsləhət görürdü. Onun fikrincə, beləələri elmə alışdıqca kahıllıq, həvəssizlik kimi zərərli adətlər aradan çıxacaqdır. Tusi korafəhm uşaqları faydalı bir şeylə maraqlandırmağı lazım bilirdi. O, təlimdə təkrarın da rolunu yüksək qiymətləndirir və deyirdi ki, "elmin düşməni unutqanlıqdır".

Böyük pedaqoq təlim və tərbiyənin məqsədini insanı kamilliyə çatdırmaqda görürdü. Buna isə, bir tərəfdən, insanın daxili qüvvələrini hərəkətə gətirməklə, digər tərəfdən isə ona düzgün pedaqoji rəhbərlik etməklə nail olmaq olar: nəfsin daxili qüvvəsi hərəkətə gələrsə, insan elm öyrənmək, həqiqəti dərk etmək, maarifə yiyələnmək kimi fəaliyyətlərə başlayar, xoşbəxtlik və səadətə qovuşar. Nəfsi cilovlayıb istiqamət verilsə, insan fəzilət yüksəkliklərini fəth edib kamala çatar. N.Tusi müəllimlərin roluna da yüksək qiymət verərək arzu edirdi ki, onlar öz yetirmələrini "qəti iradə, coşğun fəaliyyət, dərin bilik, böyük əmək tələb edən həqiqəti kəşf kimi əbədi bir səadətə çatdırsınlar; öyrətmə, mənimsəmə, möhkəmləndirmə, təlim və tərbiyə etməklə insanı mövcudatın ən yüksək dərəcəsinə yüksəltsinlər" (3, s. 54).

İnsan, onun hikməti, qüdrəti, hünəri Azərbaycanın böyük mütəfəkkiri, şair-filosofu M.Füzuli (XVI əsr) yaradıcılığında da mühüm yer tutur. Böyük sənətkar insanı xəzinələrin açarı sayır və ondan qiymətli daşları tapıb üzə çıxarmaqda hünər göstərməyi tələb edirdi. Bu isə elm, ağıl sayəsində mümkündür. Onun fikrincə, elm və ədəb insana şərəf gətirir:

Elmlə, ədəblə tapılar şərəf,
Mirvari olmasa, nə lazım sədəf?

Füzuli insanları iki təbəqəyə bölürdü: kamil və cahil insanlar. Cahillər var-dövlət toplamaqla məşğul olur, kamil insanlar isə elmə, ağla yiyələnməklə mənəvi cəhətdən zənginləşir, ucalırlar. Böyük şair gəncləri elm öyrənməyə , öz əqli inkişafı qeydinə qalmağa çağırırdı.

Füzuli elmlə müntəzəm məşğul olmağı, əldə edilən səviyyə ilə kifayətlənməməyi, özünə tənqidi yanaşmağı lazım bilir və gənclərə məsləhət görürdü ki, hansı elmə yiyələnsən də nadanlığını etiraf et, çünki təkəbbürlük nadanlıq əlamətidir.

Böyük Nizami və Füzuli kimi, xalqımızın mütəfəkkir alimi və şairi A.Bakıxanov (XIX əsr) da insan həyatında ağlın rolunu yüksək qiymətləndirmiş, onu dünya sirlərini açmağın ən yaxşı vasitəsi hesab etmişdir. "Təhzibi-əxlaq" əsərində o, dünyanı dəryaya, ağlı gəmiyə, biliyi yelkənə bənzədərək deyirdi ki, "fırtınalı dənizdə ağıl gəmisi olmadan səfər etmək mümkün deyildir" (4, s. 65). A.Bakıxanov, N.Tusi kimi, elmi, hikməti insanın ən böyük fəziləti, ən yaxşı dövləti sayırdı. "Nəsihətnamə"də deyilir: "Elm və kamalı əldə etməyi hər şeydən daha əziz tut, çünki hər şey onların vasitəsilə qazanılır" (4, s. 69).

Elmə, biliyə yiyələnməyin vacib şərti kimi Bakıxanov insanın səy göstərməsini, çalışmasını qeyd edirdi: "İnsan üçün səydən başqa bir şey yoxdur", çünki "zəhmətsiz məhsul olmaz". Şair tənbəlliyi eyiblərin ən pisi adlandırırdı; tənbəllik "insanı işdən qoyar, onda tərəddüd, şübhə və qorxu yaradar" (4, s. 42).

A.Bakıxanov insanda elm və əməlin vəhdətdə olmasını göstərərək hər işi öz ağlının təsdiqi ilə görməyi, işdən əvvəl yaxşı düşünməyi, işin icra qaydalarını öyrənməyi, onun icrasına nəzarət etməyi, səhvə yol verdikdə səbəblərini axtarmağı tövsiyə edirdi. Bu tövsiyələr bütövlükdə şagirdlərin təlimdə müstəqil işinə də aid edilə bilər.

Həyatda və təlimdə insanın müstəqilliyi, bu yolla elmə, kamala yetişməsi fikri XIX əsrin görkəmli filosofu, yazıçısı M.F.Axundzadənin elmi-pedaqoji irsində də mühüm yer tutur. O, maarifçi-filosof kimi cəmiyyətin tərəqqisində elmin, təhsilin rolunu yüksək qiymətləndirirdi. Onun fikrincə, avam, savadsız adam gözübağlı, əsarətdə qalar, mənəvi və cismani azadlıqdan məhrum olar. Təsadüfi deyildir ki, M.F.Axundzadə yeni məktəb uğrunda, təhsilin yeni məzmunu və metodları uğrunda fəal mübarizə aparmışdır. O. böyük maarifçi ziyalı H.B.Zərdabinin "elm öyrənin" çağırışı ilə bağlı ona yazdığı cavabda deyirdi: "elmi haradan öyrənək, kimdən öyrənək, hansı dildə öyrənək?" Bu suallarla böyük ədib dünyəvi təhsil verən məktəb və müəllimlərin, habelə dərs kitablarının və maliyyə vəsaitinin olmadığını, ana dilində təlim almağın vacibliyini qeyd edirdi. Xalqın savadsızlığının bir səbəbini də köhnə əlifba ilə izah edən ədib onu yeni əlifba ilə əvəz etməyi, bununla da oxunu və yazını asanlaşdırmağı lazım bilmiş, özü belə bir əlifba hazırlamışdı.

M.F.Axundzadə kimi, XIX əsrin tanınmış maarifçisi, jurnalisti və pedaqoqu H.B.Zərdabi də təhsili, elmi xalqın tərəqqisinin, cəhalətdən xilas olmasının başlıca vasitəsi hesab edirdi. O, yaradıcı nəsil tərbiyə edib yetişdirməyi zəruri sayır, bunu cəmiyyətin tələbi ilə əlaqələndirib yazırdı: "Dünyanın dərk edilməsi sahəsində heç bir yeni addım atmayan, yalnız ata-babadan qalmış bilikləri əxz edən nəsil ölü nəsildir" (5, s. 249).

H.B.Zərdabi dövrünün məktəblərində təhsilin acınacaqlı vəziyyətini tənqid edərək bu məktəblərdə verilən səthi biliyi daşlı torpağa səpilmiş və buna görə də cücərə bilməyən toxuma bənzədirdi. O, 1900-cü ildə «Kaspi» qəzetində (№36) dərc etdirdiyi bir məqalədə məktəbin mühüm vəzifəsini "şagirdlərin müstəqilliyini tərbiyə etməkdə, onları səbəbiyyət qanunları ilə tanış etməkdə, ətraf aləmi müşahidə etdirməklə məlum olmayan yeni qanunları dərk etdirməkdə" görürdü. H.B.Zərdabi təlim metodlarına da böyük əhəmiyyət verirdi. O, təlimdə şagirdlərin müstəqil işinə, öyrənilən biliklərin tətbiqinə geniş yer verməyi, məktəbdə və ailədə uşaqlar üçün normal gigiyenik rejim tətbiq etməyi, əməklə istirahəti uzlaşdırmağı, təlimdə uşaqların həddən artıq yüklənməsinə yol verməməyi vacib sayırdı.

H.B.Zərdabi ilə bir dövrdə yaşamış yazıçı, filosof və pedaqoq M.Ə.Talıbov onunla bir çox məsələlərdə həmfikir olmuşdur. O da insanın zehni-mənəvi inkişafında elmi biliklərin, müstəqil düşüncənin rolunu yüksək qiymətləndirmişdir. Onun fikrincə, insan "necə? nə üçün?" suallarına cavab axtararkən hadisələrin mahiyyətini dərk etdiyi vaxtdan İnsan olur. Uşaq da danışmağı öyrəndiyi vaxtdan hər şeyin səbəblərini, mahiyyətini axtarmağa can atır. Bunu nəzərə alıb, müəllim və tərbiyəçilər idraki axtarışda uşaqlara kömək etməli, bununla "onun şüurunda insanlıq budağı cücərdib boy atmasına" yardımçı olmalıdırlar (1, s. 247). Böyük pedaqoq uşaqlara "sözdə və işdə sərbəstlik, müstəqillik verməyi, öz qabiliyyətlərini ifadə etməyə imkan yaratmağı" lazım bilirdi (1, s, 257). Bu mütərəqqi fikirləri ilə yanaşı, qeyd etmək lazımdır ki, M.Talıbov "azad tərbiyə" mövqeyində durmuş və təlimdə sistemli biliklərin rolunu düzgün qiymətləndirməmişdir.

Ondan fərqli olaraq, XIX əsrin tanınmış maarifçi filosofu və pedaqoqu M.T.Sidqi şagirdləri sistemli biliklərlə silahlandırmağı, bu işdə onların müstəqilliyinə istinad etməyi vacib hesab etmişdir. O, əzbərçiliyə və itaətə əsaslanan köhnə məktəbi tənqid edərək, təlimdə şagirdlərin fəallığını və şüurluluğunu gücləndirməyi tələb edirdi: "Şagirdləri tutuquşuna çevirmək olmaz, onlara ağıllılıq, düşüncəlilik aşılamaq lazımdır" (1, s. 315). Onun fikrincə, verilən biliklərin ölü yükə çevrilməməsi üçün onların dərk edilməsinə nail olmaq mühüm şərtdir.

Sidqi şagirdlərin zehnini inkişaf etdirməyin zəruriliyini qeyd edərək deyirdi ki, torpağı vaxtında əkib-becərmək vacib olduğu kimi, uşaqların zehnini də kiçik yaşlardan inkişaf etdirmək, onlarda müstəqil düşünmə bacarığı formalaşdırmaq qeydinə qalmaq lazımdır. Böyük pedaqoq müstəqil ağla, rəyə malik olmağı xoşbəxtlik əlaməti hesab edirdi. O, həmçinin biliklərə yiyələnməkdə şagirdlərin fəallığını, şəxsi səy göstərməsini mühüm şərt sayırdı: "Səy etməsən, elm əldə edə bilməzsən".

XIX əsrin ikinci yarısında yaşayıb, geniş ictimai-pedaqoji, elmi-bədii, maarifçilik fəaliyyəti göstərən Azərbaycanın bir sıra görkəmli ziyalıları, yazıçı və pedaqoqları da yeni məktəb, yeni insan uğrunda fəal mübarizə aparmışlar. Zaqafqaziya Müəllimlər Seminariyasının məzunları olan C.Məmmədquluzadə, F.B.Köçərli, R.B.Əfəndiyev, N.Nərimanov, Ü.Hacıbəyov, M.Mahmudbəyov, F.Ağazadə və b. həm öz yaradıcılığı, həm də pedaqoji fəaliyyətləri ilə bu mübarizənin önündə getmişlər. Uşaqların müstəqil fikrini boğan, onları itaətkar və aciz adamlar kimi yetişdirən köhnə məktəbin təlim metodları C.Məmmədquluzadənin qüvvətli tənqid və gülüş hədəflərindən biri olmuşdur. O, məktəbi müstəqil, şüurlu vətən-

daşların yetişdiyi laboratoriya adlandırır və deyirdi ki, yalnız yeni ruhlu müəllim böyüyən nəsli dünya mədəniyyətinə qovuşdura bilər.

Azərbaycanın görkəmli dövlət xadimi, yazıçı və maarifpərvər ziyalısı N.Nərimanov da millətin gələcəyini məktəblə, müəllimlə bağlayırdı: «Heç bir millət qılıncla, tüfənglə irəli getmir, hansı millət qabağa gedib tərəqqi edirsə, o ancaq elmin gücünə xoşbəxt olur». N.Nərimanov təlimi elə qurmağı tələb edirdi ki, «təlim uşağın öz təsəvvüratını açsın, təlim olunan mətləb onun öz malı olsun, onu bir daha yadından çıxarmasın». Bu işdə o, şagirdlərdə müstəqil işləmək bacarığı, iradi səy, çətinlikləri aradan qaldırmaq əzmi formalaşdırmağı vacib hesab edirdi.

Təlimdə şagirdlərin müstəqilliyi ideyası görkəmli Azərbaycan bəstəkarı, tanınmış alim, yazıçı, psixoloq və pedaqoq Ü.Hacıbəyovun nəzəri-pedaqoji irsində mühüm yer tutur. Pedaqoji-psixoloji fikir tarixində C.Brunerin adı ilə bağlı olan «kəşf yolu ilə öyrənmə» ideyası, prof. Ə.Ə.Əlizadənin araşdırmasına görə, Ü.Hacıbəyova məxsus olmuşdur. «Kəşf yolu ilə öyrənmə və nəzəriyyəsi: Ü.Hacıbəyov və C.Bruner» adlı məqaləsində (2007) prof. Ə.Əlizadə bu ideyanın ilk müəllifinin Ü.Hacıbəyov olduğunu, onun görkəmli Azərbaycan pedaqoqu R.B.Əfəndiyevlə polemikası prosesində formalaşdığını «Tərəqqi» qəzetində dərc olunduğunu (6, 8 mart, 1 aprel 1909-cu il) qeyd edir. Ü.Hacıbəyov bu ideyanı xarici dillərin tədrisi metodikası ilə bağlı irəli sürmüşdür: bu halda «öyrədilən kəlmələrin mənasını uşaqlar özləri tapıb həmin sözlərin nə ifadə etdiyini və ana dilində nəyin müqabil olduğunu şagirdlər özləri tapıb kəşf edirlər». Böyük pedaqoq kəşf yolu ilə öyrənmə ideyasının pedaqoji-psixoloji mənasını da açıqlayırdı: bu halda uşağın zehni tərbiyəsi təmin olunur, kəşf edilən biliklər daha yaxşı yadda qalır, uşaqda təlim sevinci və güclü stimul yaranır – «o dərsə qalib gəldiyini duyur».

Azərbaycan pedaqoji fikir tarixinin qısa xülasəsindən göründüyü kimi, gənc nəslin idrak fəallığı və müstəqilliyi mütəfəkkirlərimizin, pedaqoq və ziyalılarımızın həmişə diqqət mərkəzində durmuş və yüksək qiymətləndirilmişdir. Azərbaycan xalq pedaqogikasında olduğu kimi, mütəfəkkirlərimizin, pedaqoqlarımızın yaradıcılığında da belə bir ümumi fikir hakimdir ki, ağıl, hikmət ən böyük dövlət, insanlığın tərəqqisinin başlıca hərəkətverici qüvvəsidir. Bu keyfiyyət bütün fəzilətlərin əsasına qoyulmuşdur, çünki bunsuz insanın başqa fəzilətlərə çatması çətindir. Klassiklərimiz ağla, hikmətə sahib olmağın mühüm şərtləri sırasında insanın elmi biliklərə yiyələnməsinə, mütaliə etməsinə, müstəqilliyə adət etməsinə, iradə gücü ilə çətinlikləri aradan qaldırmasına, özünütəhsillə məşğul olmasına xüsusi əhəmiyyət vermişlər. Maarifçi ziyalılar, pedaqoqlar uşaqların müstəqil fikrini boğan, onları itaətkar, aciz adamlar kimi yetişdirən, «tutuquşuna» çevirən köhnə əzbərçilik məktəbini tənqid edərək təlimdə yeni metodlardan istifadə etməyi, şagirdlərin müstəqilliyini genişləndirməyi, onlara müstəqil iş bacarıqları aşılamağı mühüm tələb kimi irəli sürmüşlər. Bu fikirlər bu gün də öz aktuallığını saxlayır. Təlimdə şagirdlərin müstəqil işinin nəzəri və təcrübi məsələlərinin həllində bu qiymətli pedaqoji irsdən faydalanmaq lazımdır.

## QEYDLƏR

1. Azərbaycan SSR-in pedaqoji fikir antologiyası. M.: 1989.
2. Gəncəvi N. Seçilmiş əsərləri. Bakı: 1985.
3. Tusi N. Əxlaqi-Nasiri, Bakı: "Elm", 1989.
4. Bakıxanov A. Seçilmiş əsərləri. Bakı: «Yazıçı», 1984.
5. Zərdabi H.B. Seçilmiş əsərləri. Bakı: 1960.

## ОБ ИСТОРИИ АЗЕРБАЙДЖАНСКОЙ ПЕДАГОГИЧЕСКОЙ МЫСЛИ ПО ВОПРОСУ УЧЕБНО-ПОЗНАВАТЕЛЬНОЙ САМОСТОЯТЕЛЬНОСТИ УЧАЩИХСЯ

**М.А.ИСМИХАНОВ**

### РЕЗЮМЕ

В статье рассматривается вопрос учебно-познавательной самостоятельности учащихся в истории азербайджанской педагогической мысли. Автор анализирует и обобщает мысли видных азербайджанских философов, педагогов-просветителей – А.Бахманяра, Н.Гянджеви, Н.Туси, М.Физули, А.Бакыханова, М.Ф.Ахундзаде, Г.Б.Зардаби, а также педагогов последующих периодов.

## ABOUT THE HISTORY OF AZERBAIJAN PEDAGOGICAL THOUGHTS ON THE MATTER OF TEACHING AND COGNITIVE INDEPENDENCE OF PUPILS

**M.A.ISMIKHANOV**

### SUMMARY

The article deals with the matter of educational – cognitive independence of pupils the history of Azerbaijan pedagogical thought. The author analyses and generalizes the ideas of the Azerbaijan philosophers, enlightener-teachers A.Bakhmanyar, N.Ganjavi, N.Tusi, M.Fizuli, A.Bakikhanov, M.F.Akhundov, H.B.Zardabi and also the teachers of the last decade.